BAKI DÖVLƏT UNİVERSİTETİ
FİLOLOGİYA FAKÜLTƏSİ
AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATININ TƏDRİSİ METODİKASI KAFEDRASI &
TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ

# "MÜƏLLİM, MƏNİ ÖZ İÇİMDƏ ALİCƏNAB VƏ NƏCİB İNSAN YARATMAĞA RUHLANDIR"

adlı
II elmi-pedaqoji
seminar

Mündəricat

Mətanət Abdunova ........ 3
Nigar Əliyeva ........ 5
Nuranə Rüstəmli ........ 6
Aytən Məhərrəmova ........ 8
Bəsti Səttarova ........ 10
Gülzar Əlləzova ........ 12
Sevinc Qasımova ........ 14
Məleykə Mirzəli ........ 16
Elnarə İbrahimova ........ 17

*Mətanət Abdunova (II kurs magistr tələbəsi)*

**“Əsərinin üzərində imzası olmayan yeganə şəxsiyyət müəllimdir” (Mustafa Kamal Atatürk)**

“Müəllim”... Bir isim, bir məslək və ya bir ixtisas... Görəsən bu qədər sadədirmi bu sözün qarşılığı?! Əlbəttə ki xeyr! Müəllim həyatımızın hər bir dönəmində müxtəlif mühitlərdə, müxtəlif adlarda və müxtəlif cisimlərdə bizimlə bir addımlayan şəxsdir. Bu çıxışımda müəllim necə olmalı və necə olmamalı suallarına cavab tapmağa çalışacağam. Təbii ki, bu şərəfli adı layiqincə daşıyan müəllimlərin izni ilə, çünki onlar bu araşdırmanın canlı örnəkləridir.

Hər kəsə məlumdur ki, müəllim olmaq, ilk növbədə, akademik bilik tələb edir. Belə ki, müəllim tədris etdiyi fənnlə əlaqəli elmi biliklərə dərindən yiyələnməlidir və bu, sinif və dərs idarəsində onun üçün özünə güvənin əsas təminatıdır. Lakin müəllim həm də ötürücülük bacarığına malik olmalıdır. Belə ki, o öz didaktik qabiliyyəti hesabına öyrənənin yanında duraraq üzərində öyrədici funksiya daşımağı bacarmalıdır. Ancaq hər birimizin öz şəxsi təcrübəmizdə də gördüyümüz kimi, ailədən sonra ən kiçik sosial mühit hesab edilən sinif otaqları bizim üçün sadəcə bilik mənbəyi deyil, həmçinin cəmiyyətə yararlı bir şəxsiyyət kimi formalaşmağımızda təməl rolunu oynayan faktordur. Bizə görə, bu hər bir şagird və tələbə üçün daha həyati gərəklilikdir. Çünki elmi bilik, savad gələcək həyatımızda bizi hansısa yaxşı bir pilləyə gətirib çıxara bilər, düzgün formalaşan şəxsiyyətimiz isə bizi orada saxlaya bilən ən əsaslı amildir. Yaxşı platformaya gəlmək deyil, orada öz mövqeyini qoruya bilməkdir əsas şərt. Bu səbəbdən çıxışın daha geniş hissəsini müəllimdə olmalı perseptiv bacarıqlara ayırmaq istərdim. Perseptiv bacarıq dedikdə müəllimin şagirdin daxili aləminə nüfuz edə bilməsi, şagird şəxsiyyətini və onun müvəqqəti psixi vəziyyətini incəliklərə qədər duyması duyması nəzərdə tutulur.

**Müəllim hər bir şagirdin dostu olmalı və bu münasibətin balansını qoruya bilməlidir.** Əlbəttə, müəllim şagird üzərində statusunu hiss etdirəcək ciddiliyə malik olmalıdır. Bu ilk növbədə, şagirdin dərsdə nizam-intizamı və özünü idarəetmə öhdəliyinin yaranması üçün əsas şərtdir. Lakin müəllim özü təyin etdiyi vaxt bölgülərində şagirdlə səmimi bir bağ qurmağı bacarmalıdır. Bunun üçün lazım olan və demək olar ki, müəllim-şagird münasibətlərində əsas idarəedici və təyinedici hiss sevgidir. Müəllim sinfini sevməlidir, müəllim bütün ailə üzvlərini sevməlidir, Sizcə də hər bir sinif bir ailə deyilmi?! Və bu zəncirvari bir sistemdir. Müəllim bilməlidir ki, o bir vətəndaş yetişdirməklə yanaşı, həm də gələcəyin bir valideyni və ya bir müəllimini də yetişdirir. Müəllim şagirdlərini sevməklə cəmiyyətə sevgi dolu bir insan qazandırır. Sevgi bir insana verə biləcək ən gözəl dəyərdir. Şagirdi sevmək ona sevgini, mərhəməti, xeyirxahlığı öyrətməyin ən sadə və ən təsirli yoludur.

**Müəllim şagirdlərini dinləməyi bacarmalıdır.** Şəxsimdə qarşılaşdığım ən böyük problemlərdən biri də istər orta məktəbdə, istərsə də ali məktəbdə şagirdlərə (tələbələrə) şəxsi fikir ifadə etmək şansının verilməməsidir. Şəxsi fikir ifadə edən şagirdlərə (tələbələrə) laqeyd, hətta bəzən alçaldıcı qarşılıq verən pedaqoq bunun gələcəkdə şagird psixologiyasında yaranacaq mənfi izlərin məsuliyyətini daşıyır. Çünki hər bir şagird yeni bir fidandır. Hər bir

şagird yeni bir fikir, yeni bir baxış aspektidir. Müəllim səbrlə öz fidanlarını dinləməli, fikirlərə dəyər verməli və hər zaman “yalnız və yalnız özüm haqlıyam” - hissindən azad olmalıdır. Təbii ki, şagird səhv edə bilər, müəllim sonadək dinləmə təmkinini göstərdikdən sonra öz elmi və həyati təcrübəsinə əsaslanaraq şagirdin fikrinə münasibət göstərməli, lazım gələrsə şagirdin fikrinə və mövqeyinə onun¬¬ (şagirdin) razılığı ilə dəyişikliklər təklif etməlidir. Danışmaq ayrıdır, danışmağı bacarmaq tamamilə ayrı. Bu qabiliyyətimizi evdə valideyn olaraq bir pedaqoq, məktəbdə isə müəllim olaraq digər pedaqoq inkişaf etdirməlidir.

**Müəllim şagirdini görməlidir.** Sinifdə neçə şagird varsa bir o qədər fərqli xarakter, fərqli həyat, fərqli ailə tablosu, fərqli sosial və ruhi varlıq vardır. Müəllim şagirdlərini tanımalıdır, müəllim üçün şagird seçimi, şagird bölgüsü yalnızca dərs intizamı üzrə sərhədlənməməlidir. Qarşılaşdığım bir çox müəllimlər üçün şagird iki qrupa bölünür: oxuyan şagird və oxumayan şagird. Bu çox məhdud yanaşmadır. Axı, onlar şagird ikən həyatın reallıqlarını, çətinliklərini, əksikliklərini çiyinlərində daşımaq üçün çox zəifdirlər və bir çox hallarda bu ağırlıqlar onların daxilində gedən proseslərdən kənara çıxaraq bəzən simalarında, bəzənsə daha dərin təsir nəticəsində hərəkətlərində hiss olunur. Ailədaxili münaqişələri olan, sosial cəhətdən zəif təminata malik olan, ailədə valideynlərinin ünsiyyət problemi olan və başqa bu kimi ciddi, şüuraltı psixoloji zədələrə məruz qalan uşaqlarda sosial mühitlərdə özünüaparma və özünüifadədə bəzən əsaslı problemlər yaşanır. Müəllim şagirdi qınamaq və kənarlaşdırıcı tədbirlər həyata keçirmək əvəzinə onu anlamaq, onu görə bilmək və lazım gələrsə, psixoloji dəstək verməlidir. O, şagirdlə söhbət aparmalı, əvvəla problemin məğzi və təhlükə dərəcəsilə tanış olmalı, ciddi məqamlarda valideynlə söhbət aparmalıdır.

Təbii ki, şagirdlər göy qurşağı kimi rəngarəng xarakterə malikdirlər, müəllim öz pedaqoji təcrübəsiylə hər bir şagirdə bir fərd kimi yanaşıb dəyər verməyi bacarmalıdır.

Həyatımızda qarşılaşdığımız bütün müəllimlər bizə müəyyən dərəcədə təsir edə bilib. Onların bəziləri bizə necə müəllim olmalı, bəziləri isə necə müəllim olmamalı barədə canlı örnək olmuşlar. Fikirlərimi türk şairi və pedaqoqu Arif Hikmət Parın bu cümləsi ilə tamamlamaq istərdim: “Müəllim təzə ruhların işləyən ustasıdır; nəsillər yaradar, ölkələr deyil, könüllər fəth edər.”

*Nigar Əliyeva (IV kurs tələbəsi)*

**Əsil müəllim şagirddə mükəmməl şəxsiyyəti görə biləndir**

İnsan özlüyündə o qədər mürəkkəb varlıqdır ki, bu mürəkkəblik bəlkə də İlahinin insan üzərindəki inikasıdır. Tanrı insanları yaradarkən mütləqdir ki, onlara özündən bir pay verir və beləliklə həyata ilkin hayqırışları ilə ağlayaraq dünyaya gələn varlıq, əslində əsirlərin, qərinələrin süzgəsindən süzülüb gələn kamillik yolunda bir növ ilk çağırışlarını edir deyə bilərik. Hər kəs bu kamillik yoluna eyni cür yol alır, hər həs kamilləşmək, mükəmməlləşmək, Nəsiminin təbiri ilə desək, öz tamına qovuşub, bütünləşmək istəyir. Əslində mükəmməllik özlüyündə necə də mükəmməl qavrammış! Bütün bunların "insan" mahiyyəti ətrafında cəmlənməsi ilə sözlərlə ifadə edilə bilməyəcək qədər mükəmməldir.

Hər insan səhvləri və düzləri ilə birlikdə, bəzənsə bunları görməzdən gələrək mükəmməlliyə can atmaq istəyinə qarşı gələ bilmir.Çünki bu onun genetik kodlarından gələn nüansdır. Bunu əsas götürərək hər insanın azda olsa,yəni məqamından və zamanından asılı olaraq mükəmməl ola bildiyi qənaətinə gələ bilmərikmi? Təbii ki, bilərik. Önəmli olan "könül gözü" ilə baxmaq, insan yaradılışının mahiyyətindən zövq alaraq tanrının mükəmməl yaratdığı varlıqda mükəmməlliyi görə bilməkdir.

Müəllimlik sənətini sadəcə "dərs demək"," fənlərin və elmlərin bilicisi olan" qavramından uzaqlaşdırıb şəxsiyyət yetişdirmə yönümünə diqqət yetirsək, müəllimliyin nə qədər müqəddəs və məşəqqətli bir sənət olduğunu dərk etmiş olarıq. Körpə fidanlardan gül bağçası yaratmaq, sönmüş ümidlərə qığılcım olmaq tanrının müəllim deyilən kəslərə bəxş edə biləcəyi ən müqəddəs pay olduğunu deyə bilmərikmi?

Hər insanın daxilində özünün belə anlam verə bilmədiyi, ürkdüyü arzu, istəkləri yatır. Ən ipə-sapa yatmaz dediyimiz uşaq belə mərhəmətdən xəbərdardır. Önəmli deyil ki, o mütləq 0.5 i kəsr ədədinə mütləq çevirə bilsin. Mükəmməl insan bu riyazi əməli gerçək həyatda həll edə bilib 1 dilim çörəyini 2 parçaya ayırıb eyni nəticəni ala bilən deyilmi sizcə?

Əsl müəllim şagirdlərinə bunu aşılamalı, onların daxilində gizlətdiyi, balaca bədənlərinə sığdırdıqları mükəmməl şəxsiyyəti aşkara çıxara bilməyi bacarandır. Mükəmməl olmaq o demək deyil ki, şagird hər dərsə hazırlıqlı gəlməlidir, mükəmməllik onların körpə ürəklərində gizlənən mərhəmətdir, sevgidir, mükəmməlik elə onların varlığıdır. O zaman ədalətli müəllim necə öz şagirdlərini bu mükəmməldir amma digəri isə yox düşüncəsi ilə ayıra bilər? Demək, hər şagird əslində mükəmməldir! Lakin əsl müəllimin məharəti bu gizli gerçəyi aşkara çıxarmaq və şagirdlərində özünə inam yaratmaq qabiliyyətinə malik olandır.

*Nuranə Rüstəmli (IV kurs tələbəsi)*

**Dünyada hər şeyə dəyər vermək mümkündür,**
**lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz.**

Dünyaya göz açandan müəllim həyəcanını , müəllim əziyyətini, müəllim qayğısını, kimlərinsə balasının uğurunu öz balasınınkı kimi qəbullanıb sevinməsini, kiminsə övladının uğursuzluğuna kövrəldiyini görmüşəm. Anam, atam, nənələrim, babalarım, dayım - ətrafında bu qədər müəllim olan birinin, məncə, müəllimdən danışması, onlar haqqında yüksək fikirdə olması, onların daşıdıqları hisslərin nədən ibarət olduğunu bilməsi təəccüblü olmaz.

Atatürk müəllimi yanar şama bənzədirdi, Heydər Əliyev yer üzündə müəllimdən yüksək ad tanımırdı. Həzrət Əli ona hərf öyrədənin qulu olurdu. Bu fikirlər müəllimin aliliyini, ucalığını göstərir. Öz qəlbinin istisini, zərrəsini, saçlarının qaralığını, gözlərinin nurunu şagirdlərinə verən, öz övladlarını qarşılıqsız sevən analar kimi qarşılıq gözləmədən bir başqasının övladını sevərək illərlə enerjisini, vaxtını, həyatını şagirdlərinə həsr edən, yol göstərən, nümunə olan, sevən, sevdirəndir - Müəllim ...

Kim buna - dediklərimə şübhə ilə yanaşır, kim inanmır, kim bu sözlərin "pafos" olduğunu düşünürsə onlara ən son Vətən Müharibəsini nümunə göstərmək istərdim. Bəli, məhz Vətən Müharibəsini.

Bu gün müəllimlərimiz Atatürkün dediyi kimi şama bənzəmədi. Məşələ döndülər, yanan tonqala bənzədilər. Otuz il ərzində bu məşəldən, tonqaldan öyrətdikləri hər şagirdin ürəyində bir işıq, qığılcım, bir günəş yaratdılar. Vətən odu, Vətən işığı, Vətən sevgisi, vətəndaşlıq qığılcımı idi bu məşəldən doğan titrəyişlər. Belə olmasaydı, Qarabağı görməyən, hətta işğaldan sonra doğulanlar bir çağırışda silaha sarılıb düşmən üstə atılardımı?

Öz torpaqlarının - vətənlərinin haradan başlayıb, harada bitdiyini onlara məgər müəllimlər öyrətmədilərmi, müəllimlər onların qəlbində sevgiylə bərabər düşmənə nifrəti oyatmamış, onlara haqlarını, hüquqlarını, döyüş manevrlərin məhz müəllimlər öyrətməmişlərmi?

Müəllimlərdən öyrənmişlər Qarabağ şikəstəsini; hansı ki, döyüşə atılarkən zəngulə vururdu bu gün Azərbaycan əsgəri! Müəllimdən öyrənmişdi - yaralı əsgərə can verməyi Azərbaycanımın həkimi. Öz silahını düşmənə tuşlayan topçu, təyyarəçi, tankçı, nifrətini silaha çevirib - Vətən sağ olsun, deyib canını fəda edən, şəhid olan döyüşçü ölməzliyin sirrini, bəli, müəllimdən öyrənmişdi...

Bunları müəllim sadəcə olaraq "öyrətmək" ilə kifayətləndimi, məgər? Əlbəttə ki, xeyr! Müəllimlər həm də həmişəki kimi nümunə oldu şagirdlərinə Vətən Müharibəsində. Əgər əvvəllər davranışı ilə, geyimi ilə, danışığı ilə, hərəkətləri ilə nümunə idisə müəllim, bu gün vətən sevgisi ilə də nümunə oldu. Şəhid oldu, qazi, döyüşçü, döyüş yoldaşı oldu öz şagirdinə. Şagirdi gördü ki, müəllim də vətən daşını yastıq, vətən torpağını döşək bilir...

Müəllimi sadəcə söz deməklə kifayətlənmir, söylədiklərini birə-bir yerinə yetirir... Təkcə öyrətmir, elə yaşayır ki , baxıb da öyrənirlər, onun yolu ilə gedirlər. Yalnız sözdə deyil, əməldə də göstərir və öyrədir. Bu gün müəllim təkcə ziyalı kimi yox, döyüşçü kimi də seçildi, sübut etdi ki, qələm üçün yaranmış əllər lazım gələrsə silah da tutar, yara da sarar. Sevgi yaratdığı qədər sevə də bilər.

Hər kəsin həyatında, taleyində yeri olan müəllim bu gün Vətənimin taleyi həll olarkən də öz imzasını atdı. Vətənimin keçmişini unutmağa qoymayan, bu gününü sevdirən, sabahını düşünərək lazımı vətəndaşlar, "Vətən daşı" yetişdirən insan - Müəllim! Sən, əməllərinlə sübut etdin ki, müəllim gecələrini şagird dəftərlərini yoxlamağa həsr etdiyi kimi, gecəni sübhə kimi səngərdə də keşik çəkə bilərmiş. Zəfər bayraqlarından söz açıb şagirdlərinə qələbə, azadlıq ruhunu yaşatdığın kimi qələbə bayrağını özün də sanca bilərsənmiş. Sübut etdin ki, təlim tərbiyə işlərini dörd divar arasında deyil, top-tüfəngin altında da verə bilərsənmiş. Əməyini, amalını, həyatını sərf etdiyin vətəninə bu gün canını da qurban verə bilər, şəhidlik zirvəsinə yüksələ bilərsənmiş. Bütün bunları sən əməlinlə də göstərdin, öyrətdin. Tarixən də sənə hörmət ən ali səviyyədə olub, bu gündə belədir, gələcəkdə də belə olacaq.

Gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir. Çox xoşbəxtəm ki, mən də gələcəyin müəllimiyəm!

*Aytən Məhərrəmova (IV kurs tələbəsi)*

**Uşaqlara bilik öyrədib mənəviyyatlarını saflaşdırmayan, ruhun imkanlarını üzə çıxarmayan müəllimlər cəmiyyətin gələcəyini uçuruma aparan vətəndaşlar yetişdirmiş olurlar**

İnsan dünyaya gəldiyi gündən etibarən nələrisə öyrənməyə başlayır. Öyrəndiklərimiz, öyrənəcəklərimiz heç vaxt bitmir, hətta zamanla çoxalır. Balaca uşaq olanda ətraf aləmi dərk etmək istəyilə öyrəndiklərimiz tədricən yerini dərin biliklərə, elmlərə buraxır.

Peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə.s.) müsəlmanlara xitabən buyururdu: "Beşikdən qəbrə kimi elm öyrənin". Bu uzun yolda bizə rəhbərlik edənlər isə valideynlərimiz və müəllimlərimiz olur. Hətta həyatımızın böyük bir qisminin memarı müəllimlərimiz olur desək, yanılmarıq.

Bəs bütün müəllimlər yaxşı memar ola bilirmi? Bu çox əmək istəyən, məşəqqətli bir işdir. Müəllim olmaq sinfə daxil olub, uşaqları yazacağı qeyri-kafi qiymətlərlə qorxudaraq susdurub, 45 dəqiqə standart işləri görüb, dərsin bitməyini həvəslə gözləmək olmamalıdır. Müəllim olmaq hər gün eyni sinfə fərqli hisslərlə, sevgiylə, bu dəfə onlarla fərqli şagirdin içində nələrlə qarşılaşacağının marağıyla, şagirdlərin iç dünyasını görə bilmək istəyiylə daxil olmaqdır. Müəllim olmaq şagirdlərə hər şeyi olduğu kimi əzbərlətmək deyil. Əksinə, onlara mövcud olanı araşdırmaq, dəyişdirmək, şərh etmək imkanı vermək olmalıdır. Elə bu məqamda fransız alim A. Karrelin "Müəllim, bir zəkanı tamamilə hazır məlumatlarla dolduran təlimçi deyil, tələbələrin öz-özlərinə fikirlərini inkişaf etdirmələri üçün onları cəlb edən bir insan olmalıdır" sözləri tam yerinə düşür.

Müəllim öz biliyi, dünyagörüşü, hadisələrə yanaşma tərziylə insan həyatına işıq saça biləcəyi kimi, içərisində yanan işığı görməzsə, onu tamamilə söndürə də bilər. Zənnimcə, şagirdinin gözündən özünü görə bilən müəllim heç zaman uduzmaz. Çünki nöqsanlarımızı görməyin ən gözəl yolu özümüzə kənardan baxa bilməkdir. Heç bir insan, eləcə də heç bir müəllim mükəmməl ola bilməz. Ancaq dünyada mükəmmələ ən yaxın keyfiyyətdə insanlar məhz müəllimlər olmalıdır. Çünki müəllimlər gələcəyin təməlini sağlam atacaq nəsil yetişdirməlidir. Bütün uşaqlar, gənclər cəmiyyətimizin gələcəyidir. Uşaqlar Allahın valideynlərə bəxş etdiyi gözəllik, valideynlərin isə biz müəllimlərə əmanət etdiyi əvəzsiz varlıqlardır. Əmanətlərimizə can-başla sahib çıxmalıyıq. Əks halda, gələcəyimizi öz əllərimizlə uçuruma sürükləmiş olarıq. "Yaxşı müəllim susuz torpağa can verən yağışdan da qiymətlidir, yağışla torpaq dirçəlir, müəllimlə bütün bəşəriyyət" ( M. K. Atatürk).

Sadalanan bütün səbəblərə görə deyə bilərik ki, il ərzində pedaqoji təhsilini başa vuran yüzlərlə tələbənin hamısı gələcəkdə şagirdlərinin həyatında vacib rol oynayan müəllim ola bilmir. Çünki tələbələrə universitetlərdə, əksər hallarda, şagirdlərə hansı prizmadan yanaşacağı, bir müəllim kimi onların, ilk növbədə, beynini deyil, ruhunu qiymətləndirmələri öyrədilmir. Məktəblər, müəllimlər 125 sualın hər birinə düzgün cavab verən, hər şeyi "əzbər" bilən çox şagird yetişdirə bilər. Ancaq yaxşı müəllim, bütün tələb olunan standartlardan öncə şagirdinin mənəviyyatını yüksəltməyə çalışmalıdır.

Müəllim izah edər, yaxşı müəllim öyrədər, daha yaxşı müəllim ilham verər. Gələcəyin müəllimi olaraq arzum hər bir şagirdimin daxilində yanan işığı şölələndirmək, onların həm öz yollarına, həm də başqalarının yollarına işıq saçmalarına yardım etməkdir! Onlara ilham mənbəyini göstərməyi bacarmaqdır!

*Bəsti Səttarova (IV kurs tələbəsi)*

**Müəllim rəqabəti deyil, komanda olmağı öyrətməlidir**

Düşünün, Sergey Raxmaninovun piano və orkestr üçün 2 nömrəli do minor konserti səsləndirilir. Möhtəşəm axıcılıq, səlislik, ruha sakinlik.. Barmaqların pianonun şirmayi dilləri üzərində virtuoz hərəkətləri ilə yranan mükəmməl ahəng.... . Siz heyrət və heyranlıq dünyasına qərq olmusunuz. Lakin ... ahəngin içində ahəngsizliyi – səsboşluqlarını duymağa başlayırsınız. Səbəb pianonun dillərindən birinin işləməməsidir. Bu bir dil(yəni onun səslənməməsi) sizi narahat edəcəkdir. Əla əsərin pianoda əla çalınması üçün barmaqlar önəmli rol oynayır, amma bu, kifayət deyil. Pianonun bütün dilləri eyni tərzdə düzgün səslənməlidir. Dillərin hərəkətə gəlməsi işi ifaçıdan asılıdır; ifaçı musiqi alətini mükəmməl hiss edə bildikdə onunla ( ifaçı ilə) alətin sanki qovuşması, vəhdəti baş verir. Yalnız bu halda ali ifa alınır.

Belə analogiyanı müəllimlik sənəti ilə aparmaq mümkündür – müəllim şagirdlərinin hər biri ilə, eləcə də şagirdlərin bir-biri ilə ünsiyyətində vahid işgüzar-psixoloji mühit, qarşılıqlı hörmət və sevgi ahəngi - sinif komandası yaratmağı bacarmalıdır. Bu komandada hər bir uşaq həm intellektual səviyyəsini, həm də insani keyfiyyətlrini inkişaf etdirmək üçün səy göstərməlidir. Eyni zamanda, uşaqlar arasında eqoistlik, özünü bəyənmişlik, yoldaşlarına qarşı laqeyidlik, rəqabət və intriqa kimi xüsusiyyətlər müəllimin yaratdığı mərhəmət, sevgi mühiti ilə aradan qaldırılmalıdır. Hər bir uşaq cəmiyyətimiz üçün böyük önəm kəsb edir. Əgər komanda olmaq ruhu müəllim tərəfindən uşaqlara aşılanmırsa, belə uşaqlar gələcəkdə tutduqları mövqelərdə elmli mütəxəssis olsalar da, rəhimli və altruist ruhlu insan ola bilməyəcəklər. Müəllim sinifdə birlik yaratmaq istəyirsə, başlıca olaraq komanda işi üçün uşaqların eyni məqsədlə irəliləməsinə nail olmalıdır. Buna görə məqsəd birliyi hər zaman diqqətdə saxlanılmalıdır. Komanda ruhu emosional intensivlik də tələb edir. Bu işdə beyin və ürəklə işə cəlb olunmaq vacibdir. Bunun üçün uşaqlarda birgə çalışmaq, komandaya məhəbbət və inam yaratmaq lazımdır. Bir neçə il əvvəl Amerikanın Vaşinqton ştatındakı Sietl şəhərində çoxlarımızın marağına səbəb olacaq hadisə baş vermişdi. (Gəlin video-roliki izləyək - https://www.youtube.com/watch?v=M8zdGqE8B98)

Daun sindromu körpəlikdən zəka çatışmazlığı, xarakterik üz görünüşü və zəif əzələ tonu (hipotoniya) ilə əlaqədar xromosal vəziyyətdir. Bu təsirə məruz qalmış fərdlər idrak gecikmələri yaşayır, lakin intellektual əlillik, ümumiyyətlə, yüngül və orta dərəcədə olur. Daun sindromlu uşaqların, təxminən, yarısı ürək qüsuru ilə doğulur. Bəzən “böyük” və sağlam ürəklərdə kiçik sevgiyə yer olmur, lakin izlədiyimiz daun sindromlu idmançıların qəlbinə dünyalar qədər sevgi sığışmışdır Uşaqlar bilməlidir ki, həyatda hər kəs çətin situasiyaya düşə bilər və həyatda ən pis vəziyyət kimdəsə ona kömək etmək arzusunun olmamasıdır. “Yaxşılıq ək ki, yaxşılıq biçəsən”. İnsan olmağın yolu sevgi körpüsündən keçir.. Bu ibrətamiz hekayə, yaxşı olar ki, bütün məktəblərdə və bütün siniflərdə müzakirə olunsun.

Uşaqların bir komanda şəklində birləşməsinə mane olan səbəblərdən birincisi rəqabət hissidir.Bir-birinə qarşı prinsip, paxıllıq, rəqabət bəsləyərək öndə olmağa can atmaq yox, dar vəziyyətdə köməyə ehtiyacı olanlara qol-qanad gərməyin vacibliyini anlatmağı bacarmalıdır müəllim.

Cek London yazır ki, birlik hər zaman rəqabətdən daha qüvvətlidir. Rəqabəti insan yalnız özü ilə apara bilər. Müəllim əvvəlcə özü bilməlidir ki, ən böyük rəqib onun daxili aləmindəki qüsurlardır, sonra o, şagirdlərinə bunu öyrətməlidir. Belə məqamda Konfutsinin "Ağıllı insan kimsə ilə yarışmaz, beləcə kimsə onunla yarışa bilməz" ifadəsi yada düşür. Artıq sinifdəki uşaqlar bu devizlə irəliləsə, qəlblərində bir- birinə qarşı rəqiblik hissi məhv olacaq, insanın böyüklüyünə və kamilliyinə inam yaranacaqdır.

Müəllim uşaqlarda özlərinə inam hissini dərinləşdirməli, komanda yoldaşlarına inamlarını artırmalıdır. Nəticədə, uşaqlar "Kim birinci olacaq?" sualına cavab axtarmaq yerinə "Birgə uğura necə nail olacağıq? sualına cavab verəcəklər. Bununla da, yoldaşlar bir-birini dəstəkləyib bir-birinə stimul verəcəklər. Belə bir şəraitdə böyük irəliləyişlər doğacaqdır.

Uşaqlar artıq qədəm qoyacaqları növbəti həyat pillələrində komandanın yalnız sinif, məktəb çərçivəsində deyil, eyni zamanda, ailə, iş, cəmiyyət və millət kontekstində rolunu dərk edəcəklər.

Qrup işinin müsbət tərəflərindən biri də şagirdlərin daha çox işləmək istəklərini, emosional- pozitiv həyəcanlarını oyandırmaqdır. Bir komanda şəklində - birlikdə uğur qazanmaq əzmi şagirdi daha aktiv formada işə sövq edir. Birlikdə qazanılan uğur bir nəfərin uğurundan dəfələrlə qiymətlidir!

Komanda olduqda uşaqlar həyatın ali qanununun - insana və canlı aləmə sevginin və ondan irəli gələn mərhəmət və xeyirxahlığın bu dünyada qazanılacaq ən gözəl hiss, ən yüksək amal olduğunu dərk edirlər. Sonda müəllim sinfin ümumi vəziyyətini müşahidə etməli və belə suallara cavab tapmalıdır:

Uşaqlar arasında ünsiyyət prosesi necə davam edir? Bir-birlərinə sevgi ilə yanaşırlarmı? Yeni öyrəndiklərini bir- birləri ilə bölüşməkdə çətinlik çəkirlərmi? Komandada iştirak hansı səviyyədədir? Bu suallara müsbət cavab verilərsə, deməli, müəllim əsil insan və əsil pedaqoqdur!

*Gülzar Əlləzova (IV kurs tələbəsi)*

**Yaxşı təhsilli olmağın əlaməti ali bilikləri sadə dillə deməyi bacarmaqdır**

Həyatda insanın dörd müəllimi olur – valideynləri,müəllimləri, şəxsi təcrübələri və təbiət. Onlardan biri körpəlikdə, biri uşaqlıqda, biri gənclikdə, biri də qocalıqda müəllimlik edir. İnsan dünyaya göz açdığı gündən başlayaraq inkişaf edir. Bu, təkcə fiziki inkişaf deyil, həm də ruhi inkişafdır. Təəssüflər olsun ki, bəzi ailələrdə uşaqların maddi ehtiyacları qarşılanır, amma mənəvi cəhətdən uşaqları düzgün yetişdirə bilmirlər. Təbii ki, mənəvi cəhətdən yetişməmiş bir insan düzgün ruhi tərbiyə verə bilməz.Buna görə də ilk müəllimlərimiz olan valideynlərin mənəvi cəhətdən inkişaf etməsi uşaqların həyatında çox böyük bir töhfədir. Ralf Uold Emerson isə belə deyir: "Yaxşı müəllim daha çox faktları çatdıran yox, varlığı ilə bizi fərqli insanlara çevirən şəxsdir".

Müəllimin işi təkcə bilik vermək deyil. O, ilk olaraq uşaqları sevməlidir. Uşaqlar arasında tənbəl, çalışqan, səs-küy salan şagird və s. kimi fərqlər qoymamalıdır. Uşaqların mənəvi tərbiyəsinə, ruhunun inkişaf etdirilməsinə çalışmalıdır. Onları mərhəmətli, yardımsevər, təvazökar insanlar kimi yetişdirməlidir. Unutmaq olmaz ki, pis uşaq yoxdur. Onlara təsir edən valideynlər, müəllimlər, ətraf mühitdir.Sadəcə, elmi bilik vermək cəmiyyəti inkişaf etdirmək deyil, bəlkə də, cəmiyyətə ən ağır zərbəni vurmaqdır. Adolf Disterveq deyir ki, pis müəllim şagirdinə həqiqəti çatdırır, yaxşı müəllim isə onu tapmağı öyrədir. Təlim zamanı müəllim təkcə hazır bilikləri ötürməli deyil. Şagirdləri kəşfiyyatçı kimi yetişdirməlidir. Kitab sözlərini əzbər deyən yox, öz sözlərini deyən insanlar hazırlamalıdır. Onlarda bir-birilərinin fikirlərinə hörmət, bir-birilərinə əməkdaşlıq hissi aşılanmalıdır. Məsələn, fənn biologiyadırsa, təkcə təbiət, heyvanlar haqqında öyrətməklə məhdudlaşmamalı, heyvanlara və təbiətə sevgi, onları qoruma hissi aşılanmalıdır. Fənn Azərbaycan dilidirsə, dilə sevgi aşılamazdan öncə, dil daşıyanlara sevgi aşılanmalıdır. O zaman fikir, düşüncə gözəl olur, fikir gözəldirsə, onun dildə ifadəsi də gözəl olacaq.Ulu öndərimiz də müəllimə həmişə yüksək qiymət vermiş, müəllim haqqında gözəl sözlər söyləmişdir. Onun müəllim haqqında dediyi "müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini - uşaqların tərbiyəsini yalniz ona etibar edir" fikri müəllimə verilmiş ən gözəl tərifdir. Danılmaz bir həqiqətdir ki, müəllimlik ən şərəfli peşələrdən biridir. Bəs bütünmüəllimlər bu adı layiqincə daşıya bilirlərmi? Hər kəs ağlından müəllimlərini keçirməyə başladı və hansının yaxşı, hansının pis olduğunu düşündü. Məncə, müəllimin yaxşı və ya pisi olmamalıdır.

Müəllim hər zaman üçün bir kompas kimi şagirdinə yol göstərən, bir lampa kimi daim onun yolunu işıqlandıran şəxs olmalıdır. Müəllim o kəs deyil ki, öyrədir, yəni hər öyrədən də müəllim hesab olunmur. Bəzən professsor dərəcəsinə layiq görülən müəllimlər belə öz tələbələrinə bilik verməkdə acizdirlər, ya da hədsiz dərəcədə savadlı, mükəmməl dərs öyrədən müəllim insani keyfiyyətlərdən məhrumdursa, onu müəllim hesab etmək olmaz. İnsanlar onların həyatında iz qoyan şəxsləri heç vaxt unutmur. Məsələn, yaşlı nəsillər unutqan olduqları halda öz məktəb xatirələrini, ən əsası da müəllimlərini yenicə baş vermiş hadisə kimi xatırlayırlar. Ona görə də müəllimlər çalışmalıdır ki, şagirdlərin yaddaşında yaxşı xatirələrlə həkk olunsunlar. Onlara gəlir mənbəyi kimi deyil, şəxsiyyət kimi yanaşsalar, cəmiyyətimiz uçuruma doğru getməz. Müəllim unutmamalıdır ki, məktəb onun üçün sadəcə iş yeri deyil,

burada müəllim neçə-neçə nəsillər yetişdirir, buna görə də o, sadəcə hər hansı fənləri tədris edən yox, tərbiyə verən, pedaqoq, psixoloq olmağı bacarmalıdır.

Müəllimin sözlərinin, hər dediyinin şagirdin ruhuna nüfuz etməsi, onu tərbiyələndirməsi üçün müəllimin danışığı ilə davranışının üst-üstə düşməsi, başqa sözlə desək, söylədiklərinin onun ruhu və vicdanı ilə uzlaşması vacibdir. Yalnız bu zaman o, şagirdlərinin sevimlisi olar, onun qəlbən dediyi sözlər şagirdlərin ruhuna yol tapar. Şagird xeyirxah, alicənab, nəcib, mehriban bir müəllimin tərbiyəsilə humanist bir insana çevrilər.

Mən filologiya fakültəsinin 4-cü kurs tələbəsiyəm. Qısa müddətdən sonra müəllim kimi fəaliyyət göstərəcəm. Bir müəllim kimi ən böyük arzum o olar ki, şagirdlərimin böyük qismi istər savadımı, istərsə də mənəvi keyfiyyətlərimi özlərinə örnək götürsünlər və “gələcəkdə biz də həmin müəllim kimi olacağıq” deyə qarşılarına məqsəd qoysunlar.

*Sevinc Qasımova (IV kurs tələbəsi)*

**Təhsilin başlıca məqsədi şəxsiyyət yetişdirməkdir**

Azərbaycan Respublikasının Təhsil Qanununda deyilir: "Azərbaycan Respublikasında təhsilin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə, demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və Azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir".

Bəs şəxsiyyət anlayışı nə deməkdir? Kimə şəxsiyyət demək olar? Şəxsiyyəti kim və necə yetişdirməlidir? Şəxsiyyət anlayışı mürəkkəb anlayışdır. Şəxsiyyət insanın simasıdır. Şəxsiyyət gerçəkliyi dərk edib ,onu dəyişdirməyə qadir olan insandır.Şəxsiyyətin ən xarakterik cəhətindən biri də onun fərdiyyətidir. Bura onun şəxsi xüsusiyyətləri, individual bacarıq və vərdişləri, fəaliyyət mexanizimləri daxildir. İnsan şəxsiyyəti etibarı ilə təkrarolunmazdır.

Şəxsiyyətin formalaşması üçün motivasiya mühim şərtdir. Düzgün seçilmiş motivlər şəxsiyyəti məqsədəuyğun fəaliyyətə təhrik edir. Ən əsası bu motivlər onun maraqlarını əks etdirməlidir. Maraqlar onun daxili təlabatlarının təzahürləridir. Şəxsiyyətə düzgün təsir etmək üçün maraqların lazımı qaydada ödənməsi zəruridir. Maraqların təmin edilməsi şəxsiyyətin bilik və bacarığındakı çatışmazlıqların aradan qaldırılmasına və onun bir bütöv kimi formalaşmasına kömək edir... Fərdin şəxsiyyətə çevrildiyi dövrün ən mühim qismi onun orta təhsil aldığı zamana təsadüf edir. Bu təhsil hal-hazırda 11 ili əhatə edir. Bunun mühim psixoloji və sosioloji əsasları var. Bu dövr insanın şəxsiyyət kimi formalaşması dövrüdür.Bu zamanın yaxşı dəyərləndirilməsi, boşa hədər edilməməsi lazımdır. Uşinski deyirdi: "Yalnız şəxsiyyət şəxsiyyəti müəyyən edə bilər və onu inkişaf etdirə bilər. Yalnız xarakterlə xarakter yaratmaq olar". Bu fikirlər müzakirə edilməyəcək qədər həqiqəti əks etdirən düşüncələrdir. Buradan çıxan birbaşa nəticə odur ki, şagirdi ancaq hərtərəfli bir müəllim yetişdirib, şəxsiyyətə çevirə bilər. Uşinskiyə görə, insanı bütün münasibətlərdə tərbiyə etmək, şəxsiyyət kimi yetişdirmək üçün, onu bütün münasibətlərdə öyrənmək lazımdır. Bəli, şagirdin öyrənilməsi-onun fərdi bacarıqlarının, arzu və istəklərinin,potensialının, təfəkkürünün inkişaf səviyyəsinin, xəyal dünyasının genişlik dərəcəsinin müəyyən edilməsidir. Bu isə müəllimin başlıca vəzifəsidir.

Əfsuslar olsun ki , həm tarix boyu, həm də indiki dövürdə müəllim və şagird ünsiyyətini qurmağı bacarmayan, təhsilə sadəcə təkyönümlü baxan təhsil işçiləri vardır. Qeyd edək ki , pis şagird yoxdur, sadəcə pis yanaşma var. Şagird müəllim üçün öz prinsiplərini və eqosunu sınaqdan çıxara biləcəyi obyekt deyil. Müəllim şagird üçün ona özünü tapmağa kömək edəcək və əlindən yapışıb işıqlı gələcəyə aparacaq şəxsdir. Tarixdə bir sıra şəxsiyyətlərə nəzər yetirək:

- Tomas Edison məktəb müəllimi onun anasına yazdığı məktubda Edison haqqında "Beyinsiz bir uşaqdır, ondan bacarıqlı adam çıxmaz" deyə yazmışdır. Halbuki, Edison elektrik lampasını, qramafonu və kino kamerasını kəşf edən adam kimi tarixə düşüb.

- Təkcə Amerikanın deyil, bütün dünyanın yetişdirdiyi basketbol ulduzu Michael Jordan məktəbi yarımçıq qoymuşdur. Məktəbdə hətta onu boyu balaca olduğuna görə basketbol komandasına daxil etməyiblər.
- Greqor Mendel istədiyi universitetə qəbul edilməmiş, başqa universitetdən isə qovulmuşdur. Halbuki o, genetika elminin qurucularından sayılır.
- Yaşı iyirmiyə çatmadan buxar maşınını kəşf edən Georqe Westinghous kollecdən bacarıqsız, tənbəl və avam olduğuna görə qovulmuşdur. Halbuki, həyatı boyunca inanılmaz kəşflərə imza atmış və 400-dən çox icadla dünya tarixinə adını salmışdır.
- Albert Enşteyn 15 yaşında olduqda təhsilini yarımçıq qoyur. Bir il sonra başqa bir litseyə qəbul olmaq üçün sənədlərini verir, amma qəbul olunmur. Halbuki, Enşteyn Time qəzeti tərəfindən "Əsrin adamı" seçilmiş, Nobel mükafatına layiq görülmüşdür.
- Dünya musiqisinin atası sayılan Bethoven skripkanı pis tutduğuna görə, musiqi müəllimi tərəfindən "Səndən musiqiçi olmaz" deyə qovulmuşdur.
- Dünyaya "Süh və müharibə" kimi əsəri bəxş edən Lev Tolstoy öyrənmə qabiliyyətinin olmadığına görə kollecdən qovulub...

Bu siyahını artırmaq da olar. Və qeyd edək ki, bu yalnız tarixdə bizə məlum olan hadisələrin bir qismidir. Tarix boyu üzə çıxmamış nə istedadların olduğu və gələcəyə tarix olaraq yazılacaq adlar isə bizə məlum deyil. Hər bir şagirdə xüsusi bir qayğıyla yanaşmaq, hər bir fərddə bir şəxsiyyəti axtarıb tapmaq və onu yetişdirmək isə təhsilin başlıca məqsədi və əsil müəllimin vəzifəsidir.

*Məleykə Mirzəli (IV kurs tələbəsi)*

**Müəllim o kəs deyil ki öyrədir, müəllim o kəsdir ki ondan öyrənirlər**

İnsan dünyaya göz açandan bəri daim öyrənməyə başlayır. Ta ki bu dünyadan köçənə qədər. Göz açdığımız andan bəri ilk müəllimimiz anamız olur. Ananın üzərinə düşən çox vəzifələr var. Bunlardan ən başlıcası isə övladını körpəlikdən tutmuş məktəbəqədər dövrünə kimi onu doğru tərbiyə etməkdən ibarətdir. Belə bir hadisə nağıl edilir: Bir gün mollanın yanına körpəsinin yenicə qırxı çıxmış ana gəlir. Mollaya deyir ki, mən istəyirəm uşağımı kiçik yaşlarından tərbiyə edim. Mənə nəsihət ver. Molla ona qayıdıb deyir ki, sən artıq 40 gün gecikmisən". Bu fikri ən gözəl formada Hz. Məhəmməd Peyğəmbərin "Beşikdən məzara qədər öyrən" kəlamında da görürük.

Anasının laylaları, nənəsinin nağılları, el bayatıları, ataların sözləri ilə övladlarımız yetişdikdən sonra məktəbə qədəm qoyur. Artıq bu dövrdən sonra qarşıda onu gözləyən 11 illik təlim-tədris yolu var. Bəzi şagirdlər bu 11 ili ömürlərinin ən şən, bəziləri də ən keşməkeşli dövrü kimi xatırlayırlar. "Niyə keşməkeşli?" sualı gələcək ağlımıza. Cavabı anlamaq üçün mən sizə bir videokadr göstərmək istəyirəm.

(https://www.youtube.com/watch?v=ebTvIU632Oc)

Burada gördüyümüz şagird həmin suala verəcəyimiz cavablardan sadəcə biridir. Uşağın baxışlarına baxın. Əslində danışmaq istəyir, müəlliminə axı nələrsə demək istəyir. Lakin müəllim ona ağzını açıb sözünü deməyə imkan yaratmır. Əsl müəllim isə belə davranmazdı. Hər gün dərsə gecikən şagirddən heç olmasa, bir dəfə belə olsun, səbəbini soruşardı. Sonda müəllim səhvini başa düşsə də, şagirddə həmin hadisə dərin iz qoyur. Lev Tolstoy deyir ki, "Şagirdlər müəllimlərinin səhvləri kimi heç bir şeyi möhkəm yadda saxlamırlar". Ola bilər ki, siz bu fikrə şübhə edəsiniz. Mən də buna görə tələbələr arasında sorğu keçirdim və onların əksəriyyəti bu fikri təsdiqlədilər. Buna görə müəllim düşünməlidir ki, mən onlara yalnız təlim-tədris deyil, eyni zamanda tərbiyə də verirəm.

Bəzən belə bir halın şahidi ola bilərik ki, müəllim şagirdin hər hansı səhvini düzəltmək yerinə, onu lağa qoyur. Beləcə onun həm sinif yoldaşları arasında, həm də digər müəllimləri arasında şəxsiyyətini alçaldır. "Uşaqlara lağ etmək onların inkişafına vurulmuş ən böyük zərbədir". ( A. Adler) Unutmaq olmaz ki, hər şagird sabahın alimi, müəllimi, həkimi, mühəndisi, rəssamı, yazarı və s.-dir. Axı gələcək yetişməkdə olan nəslin əlindədir.

Müəllim yalnız öz əməlləri ilə uşaqlara nələrin yanlış, nələrin doğru olduğunu göstərə bilər. Bura eyni zamanda doğru ifadələrin, doğru zamanda işlənməsini də şamil edə bilərik.

Bütün bunları əsas götürərək demək istəyirəm ki, "Hər bir uşaq müəyyən mənada dahidir və hər bir dahi müəyyən qədər uşaqdır." (Artur Şopenhauer) Və bizim gələcəyin müəllimi olaraq üzərimizə düşən borc bu dahi uşaqların beyinlərini çirkin əməllərlə, yanlışlıqlarla bulandırmamaqdır.

*Elnarə İbrahimova (IV kurs tələbəsi)*

**"Bu gün məktəbimiz və ədəbiyyatımız necədirsə, sabah millətimiz də elə olacaq" (H.Cavid)**

Bu sözləri Azərbaycan ədəbiyyatının dühası Hüseyn Cavid "Həsbi-hal" adlı yazısında qeyd edir. Təsadüfi deyildi ki, böyük Hüseyn Cavid 1915-ci ildə "Açıq söz" qəzetində çap etdirdiyi "Müharibə və ədəbiyyat" adlı məqaləsində yazırdı: "Rus-yapon müharibəsində kiçik Yaponiyanın hərbi nəzəriyyə və təcrübə, hərbi sursat təchizatı, döyüşən qüvvələrin çoxluğu baxımından və ümumiyyətlə, hər cəhətdən özlərindən üstün olan Rusiyaya qalib gəlməsinin səbəbkarı yapon ibtidai məktəb müəllimləridir. Məhz yapon ibtidai məktəb müəllimləri dərs dedikləri siniflərdə oxuyan yapon uşaqlarının hər birini əsl yapon vətənpərvəri, yapon vətəndaşı kimi tərbiyə etməyi bacarmışlar." Bu məqaləsində H.Cavid sübut edirdi ki, milli xarakteri də, ictimai və fərdi düşüncəni də tərbiyə etmək, istiqamətləndirmək lazımdır. O, dünyanın inkişaf etmiş xalqlarının həyatından nümunələr gətirir, onların iqtisadi cəhətdən güclənməsində, hətta müharibələrdə belə qələbə çalmasında fəlsəfə və ədəbiyyatın böyük rol oynadığını göstərirdi. Dahi dramaturqun da dediyi kimi millətin formalaşmasında məktəblərin, tədris prosesinin, müəllimlərin əhəmiyyəti əvəzolunmazdır. Xüsusilə insanın mənəvi dünyasını bəsləyən ədəbiyyat fənni və onun tədrisi bu prosesdə mühüm rola malikdir.

Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda, dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki xalqımızı, bütün bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar. Azərbaycan yazıçılarının qurultayındakı nitqində ulu öndər qürur hissi ilə deyirdi: "Xalqımızın tarixi çox zəngindir. Ancaq biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik." Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Son zamanlarda yaşadığımız, şahidi olduğumuz hadisələr bir daha bunu sübut edir. müharibədə yalnız iqtisadi və hərbi gücü olanlar deyil,həm də xüsusi həyat fəlsəfəsinə, ideoloji baxışlar sisteminə malik olanlar qalib gəlirlər. Qarabağ müharibəsində heç vaxt görmədiyi doğma torpaqlar uğrunda canından, qanından keçən qəhrəmanlar şübhəsiz ki, B.Vahabzadə, M.Araz, A.Səhhət, M.H.Şəhriyar, S.Vurğun şeiri ilə qidalanıblar. Millətin gücü hər bir vətəndaşın mənəviyyatında, torpağına, vətəninə sədaqətdədir. Bu gün məktəblərimizdə tədris prosesi, xüsusən də ədəbiyyatın tədrisi gənclərdə bu duyğuları qüvvətləndirməyə yönəlməlidir. Çünki şair sözü, yazıçı sözü insan ruhu, qəlbi üçün hər şeydən təsirlidir. Müasir dövrün indiki mərhələsində xalqımıza kamil, şüurca yetkin insanlar daha çox lazımdır. Belə insanların yetişməsində ədəbiyyatın misilsiz əhəmiyyəti vardır. Bu gün təhsil işçilərinin qarşısında cəmiyyətə savadlı gənclər bəxş etmək, azərbaycançılıq ənənələrinə sadiq olan əsl vətəndaşlar yetişdirmək kimi vəzifələr durur.